# Savaşa qisas hissi ilə atılmışdı

**Şanlı tariximizə böyük hərflərlə yazılmış 44 günlük Vətən müharibəsində igidlik və qəhrəmanlıq göstərən hərbçilərimizdən biri də Fərid İbad oğlu İlyasov oldu. Zəfər həvəsi, qisas və intiqam ovqatı ilə döyüşlərə atılan Fərid elə ilk dəqiqələrdən bacarığı və peşəkarlığı ilə komandirlərinin, əsgər yoldaşlarının diqqətini cəlb etdi.**

Yurdumuzun azadlığı uğrunda vuruşmaq onun çoxdankı arzusu idi. Artıq Fərid arzusuna çatmışdı. Əlində tutduğu silahının qundağını möhkəm-möhkəm sinəsinə sıxaraq qəsbkarlara qan uddururdu. Fərid hərbi hissələrdə keçirilən təlimlərdə döyüş vərdişlərini mükəmməl mənimsəmişdi, atıcılıq qabiliyyətini yüksək səviyyədə təkmilləşdirmişdi. Buna görə də onun güllələri hədəfdən yayınmırdı.

Fərid İlyasov 2 ildən çox idi ki, xüsusi təyinatlı dəstədə xidmət edirdi. 44 günlük Vətən müharibəsinin 12-ci günündə onların da dəstəsi Qarabağın azadlığı uğrunda gedən döyüşlərə qatıldı. Qorxu bilmədən döyüşlərə atılan Fərid daim irəli can atır, tez bir zamanda düşməni məhv edib qələbə qazanmağa tələsirdi. Zəfər qoxulu addımları onu Şuşaya, Qarabağa yaxınlaşdırırdı. Onun kimi qəhrəman oğulların cəsarətindən qorxan düşmən çox ağır itkilər verərək geri çəkilirdi. Xocavənd



və Füzuli uğrunda vuruşan Fərid sonra Şuşa istiqamətində döyüşürdü. Məğlubiyyəti ilə barışmaq istəməyən erməni işğalçıları tez-tez ayaq saxlayıb müqavimət göstərir, mövqelərini bərpa etməyə çalışırdılar. Belə anlarda döyüş daha da gərgin xarakter alırdı. Amma çox keçmirdi ki, işğalçılar Azərbaycan əsgərindən sarsıdıcı zərbələr alaraq, ağır itkilər verib qaçmağa məcbur olurdular.

Artıq uzun illərdən bəri qəsbkarların tapdağında qalmış Cəbrayıl, Füzuli, Xocavənd, Zəngilan, Qubadlı rayonları şanlı Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğaldan azad olunmuşdu. İndi döyüşlər Laçın, Şuşa və başqa istiqamətlərdə gedirdi. Azərbaycan əsgəri Qarabağın hər qarışı uğrunda cəsarətlə vuruşurdu. Başqa əsgərlər kimi Fərid İlyasov da döyüşlərin ön sıralarında addımlayırdı. Artıq ermənilərin "məğlubedilməz" olduqları haqqında miflər, yalanlar Azərbaycan əsgərinin ayaqları altında tapdalanmışdı. Qarabağ müharibəsi kimin güclü, kimin gücsüz olduğunu açıq şəkildə göstərirdi.

Oktyabr ayının 28-i idi. Fəridgilin dəstəsi komandirin qarşıya qoyduğu döyüş tapşırıqlarını uğurla yerinə yetirərək əməliyyatlarını davam etdirirdilər. Əgər ciddi müqavimət göstərməsəydilər, bir neçə gündən sonra onlar Şuşanı da erməni işğalından azad edəcəkdilər. Fərid də o günü, o anı görməyə tələsirdi. Bu müqəddəs məkana vuruşa-vuruşa, döyüşə-döyüşə ayaq basmaq istəyirdi. Amma təəssüf ki, bu xoşbəxt günü görmək ona qismət olmadı. Fərid oktyabr ayının 28-də İkinci Qarabağ müharibəsinin 31-ci günü döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu. Onun arzusunu, istəyini döyüşçü dostları davam etdirdilər.

Yurdumuzun azadlığı uğrunda gedən döyüşlərə yollanmış və vətənini canından da çox sevən Fərid İlyasov əzizlərinin, döyüşçü yoldaşlarının iştirakı ilə İkinci Şəhidlər xiyabanında torpağa tapşırıldı. Yaddaşlarda qəhrəman, igid və cəsur bir əsgər kimi qaldı.

Prezident İlham Əliyevin sərəncamları ilə Fərid İbad oğlu İlyasov döyüşlərdə göstərdiyi igidliyə və qəhrəmanlığa görə ölümündən



sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətdə fərqlənməyə görə", "Şuşanın azad edilməsinə görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundu.

30 ilə yaxın erməni işğalında qalmış torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Fərid İlyasov sadə və mənalı bir ömür yaşamışdı. İsti yay günlərinin birində - 20 iyul 1999-cu ildə dünyaya göz açmışdı. Onun valideynləri 1992-ci ilin may ayında erməni hücumları nəticəsində Laçın rayonunun Hacılar kəndindən köçkün düşmüşdülər. Orta təhsilini 2016-cı ildə bitirən Fərid 2017-ci ilin iyulunda hərbi xidmətə yollanmışdı. Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində xidmət etmişdi. Təlimlərdə böyük fəallıq göstərən Fərid hərbi bilik və döyüş vərdişlərinə, müxtəlif təyinatlı silahların sirlərinə dərindən yiyələnmişdi. Əsgəri xidmətini şərəf və ləyaqətlə yerinə yetirdiyinə görə valideynlərinin, doğmalarının yanına alnıaçıq, başıuca qayıtmışdı. Hərbi xidmətdən döndükdən bir müddət sonra Fərid yenidən Azərbaycan Ordusunun sıralarına qayıtmış, vətənə əsgər olmuşdu. Xüsusi təyinatlı dəstədə xidmətə başlamışdı. Yenicə başlayan xidmət yolları isə bir müddətdən sonra onu qəhrəmanlığa aparmış və şəhidlik zirvəsinə ucaltmışdı.

Şəhidin anası Bəsirə İlyasova oğlu haqqında göz yaşları içində danışdı: "Fərid həmişə deyirdi ki, ana, yəqin bu sözlərimə görə siz məndən inciməyəcəksiniz. Mən vətəni sizdən çox sevirəm. Mənim üçün birinci Vətən, sonra sizsiniz. Sizin ata-baba yurdunuz olan Laçın uğrunda döyüşsəm, o torpaqları erməni işğalçılarından azad edənlərin sırasında vuruşsam, övlad kimi az da olsa vətənin borcundan çıxdığımı zənn edərəm. Oğlum Füzuli, Xocavənd, Şuşa uğrunda vuruşdu. Canından da çox sevdiyi Vətən uğrunda şəhid oldu. Onun ölümündən bir müddət sonra Şuşa da, Laçın da, başqa bölgələrimiz də erməni işğalçılarından azad olundu. Buna görə də indi Fəridin ruhu şaddır".

Atası İbad İlyasov da oğlunu xatırlayaraq kədər süzülən səslə dedi:

- Fərid döyüşlərə yollanandan sonra narahatlığımız artmışdı. Oğlum tez-tez zəng vuraraq iştirakçısı olduğu döyüşlərdən sevinclə söz açırdı. Deyirdi ki, belə uğurlu döyüşlərlə biz qısa müddət ərzində qoynunda dünyaya göz açdığınız, illərdən bəri həsrəti ilə qovrulduğunuz Laçını da düşmənlərdən azad edəcəyik. Elə biz də intizarla həmin günü gözləyirdik. Amma oktyabrın son günlərində axşama yaxın Fəridin babası icra nümayəndəsi ilə bir yerdə qapımızı döyüb oğlumun yaralandığını bildirdilər. Bu xəbərdən kədərlənsəm də, deyilənlərə inanmadım. Çünki Fərid cəsur, igid bir əsgər idi. O yaralana bilməzdi. Çox keçmədi ki, onun şəhid olduğunu eşitdik. Bu xəbərə də inanmadım. Heç buna indi də inanmıram. Elə bilirəm ki, Fərid yenə də xidmətdədir. Günlərin birində sağ-salamat qayıdıb evimizə dönəcək...

Şəhid Fərid İlyasovun anım günündə iştirak edən məktəblilər qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən şeirlər söylədilər. Bakı şəhər İ.Hacıyev adına "Tərəqqi" texniki-humanitar liseyinin birinci sinif şagirdi Rahil Məmmədzadənin ritmik ahənglə söylədiyi qəhrəmanlara, qəhrəmanlığa həsr olunmuş şeirləri anım mərasimində iştirak edənlərin ürəklərini titrətdi. Təbiidir ki, belə vətənpərvərlik, qəhrəmanlıq süzülən şeirləri söyləyən məktəblilər də gələcəkdə adlı-sanlı igidlərimizdən olacaqlar. Fərid kimi qəhrəmanların döyüş yollarını şərəflə davam etdirəcəklər. Daim xatırlanacaq, daim anılacaq, daim yad ediləcəklər.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***